Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# Qaragöl Azərbaycanındır - milli dövlətçilik tariximizdə birmənalı həqiqət...



**Azərbaycan dövlətinin sərhəd-mühafizə sisteminin gücləndirilməsi tədbirlərinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həyata keçirildiyi məlumdur. Bunu Azərbaycan XİN də bəyan edərək bildirib ki, Ermənistan və Azərbaycan arasında sərhəd xəttinin müəyyən edilməsi tərəflərdə olan xəritələr əsasında aparılır. Söhbət Qaragöldən gedir. O Qaragöldən ki, birmənalı olaraq, Azərbaycana məxsusdur, təbii, tarixi sərvətimizdir, coğrafi sərhədlərimizə aiddir.**

Laçın rayonu ərazisində yerləşən məşhur Qaragölün tarixi haqqında kifayət qədər bilgi var və eləcə də ermənilərin ona sahiblənmək iddiası barədə də məlumat çoxdur.

İşıqlı Qaragöl Azərbaycan Respublikasının Laçın rayonu ilə Ermənistan Respublikasının Gorus rayonu sərhədində yerləşir və xüsusi maraq doğuran yüksək dağ göllərindən biridir, Alp landşaft kompleksinə malikdir.

Onu da vurğulayaq ki, Laçın rayonunda yerləşən göllərın içərisində ən çox antropogen təsirə məruz qalanı Azərbaycanın Laçın rayonu ilə Ermənistanın Gorus rayonu arasında yerləşən İşıqlı Qaragöldür. Uzunluğu 1950 metr, maksimal eni 1250 metr, maksimal dərinliyi 7- 8 metr, suyunun həcmi isə 10 milyon kubmetr olan İşıqlı Qaragölün şəffaflığı 4,6 metrdir. Göl ətrafında ermənilərin məskunlaşması və göl suyundan suvarma məqsədilə istifadə olunması (iri nasos stansiyaları quraşdırılıb) gölün suyunun tükənməsinə və çirklənməsinə səbəb olub.

### Qaragöl Ermənistan tərəfindən hansı şəkildə işğal olunub?

Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra öz təbii sərvətlərinə, çaylarına, göllərinə, tarixi abidələrinə yenidən qovuşub.

Heç şübhəsiz ki, Laçın rayonu da Azərbaycanın ən zəngin təbii sərvətlərə malik olan rayonlarından biridir. Bu gün Ermənistanın ətrafında hay-küy salıb ajiotaj yaratdığı Qaragöl heç zaman ermənilərə məxsus olmayıb, sadəcə, Ermənistan onu zəbt edərək özününküləşdirməyə çalışıb.

Rəsmi dövlət xəritələrində İşıqlı Qaragöl adlanan Qaragöl sönmüş vulkan kraterini xatırladan relikt (çəkilmiş dənizdən sonra qalan, yaxud yer qabığındakı tektonik hərəkətlər nəticəsində yaranmış, kənardan qidalanması olmayan) su mənbəyidir. Sözügedən göl Azərbaycan torpaqlarında 7 relikt göldən biridir. Laçındakı İşıqlı Qaragöl xüsusi maraq doğuran yüksək dağ göllərindən biridir.

Ermənistan hələ Sovet dövründən Qaragölə sahiblənmək üçün dəridən-qabıqdan çıxıb.

Tədqiqatçı Sultan Laçın yazır ki, Qaragölün işğalı Sovet dövründən başlanıb. "İşıqlı Qaragöl və onun ətraf ərazisi tarixən Azərbaycan torpağı olmuşdur. Rusiya imperiyasının 1903-cü ildə tərtib edilmiş xəritəsində bu göl məhz türk mənşəli Qaragöl adı ilə qeyd edilmişdir. Lakin mənfur qonşularımız olan ermənilər min bir hiylə və təzyiqlərlə onu ələ keçirmişlər. Bu günədək gölün Ermənistanın nəzarətinə verilməsi barədə müxtəlif "əfsanələr" dolaşır. Təəssüf ki, bu barədə sənədlər, demək olar ki, yoxdur. 1970-1980-ci illərdə Laçında bu prosesə qarşı inadlı mübarizə aparan ziyalılar da olub…" - deyə yazar qeyd edir.

Ermənilərin hələ keçən əsrin 80-ci illərindən Qaragölə qarşı iddialar irəli sürdüklərini və bunun üçün Moskvaya müraciətlər etdiklərini yazan KİV-də gedən məlumatlara görə, 1983-cü ildə Ermənistan SSR-in təkidli xahişi ilə SSRİ Nazirlər Soveti iki respublika arasında olan mübahisəli ərazilər barədə müzakirə aparmış, bəzi yerlərin Ermənistandan Azərbaycana, digər yerlərin isə bizdən onlara verilməsi haqqında qərar qəbul etmişdi. Mətbuatda gedən məlumatlara görə, 1983-cü ildə Qaragölün ? hissəsi Ermənistana verilib.

### Ermənistanın məkrli siyasəti və Moskva havadarlığı...

Beynəlxalq Memarlar Akademiyası Moskva şöbəsinin professoru, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, mədəni irsin araşdırılması üzrə ekspert Faiq İsmayılov Qaragölün keçmişi barədə qeyd edib ki, 1970-1974-cü illərdə ermənilər Laçının Güləbird, Cicimli, Malıbəy, Qarıqışlaq və digər kəndlərinin pay torpaqlarını, eləcə də Qaragöl yaylağının böyük bir hissəsini indiki Ermənistan ərazisinə qatmağa nail oldular. "Moskvanın bu qərarı əleyhinə çıxan Qarıqışlaq kəndinin bölgədə tanınmış ziyalıları Çingiz Mehrəliyev və İbiş Əsgərovun mərkəzi hökumətlə illərlə sürən yazışmalarına, mübarizələrinə və kəskin etirazlarına baxmayaraq, ermənilərə bağışlanmış gölü qaytarmaq mümkün olmadı. Tədqiqatçılar üçün problem ondadır ki, Sovet dövründə ermənilərə verilmiş digər bölgələrdəki ərazilər kimi, Qaragölün də Ermənistana verilməsi barədə arxivlərdə heç bir rəsmi sənəd yoxdur. O zaman Partiya Komitəsində qərar qəbul edilirdi və sərhədlər dəyişdirilirdi. Heç bir rəsmi açıqlama olmurdu" - deyə bildirən F.İsmayılovun sözlərinə görə, 1964-cü ildə gölün Ermənistan sahillərində heyvandarlıq fermalarının tikilməsi, göldə güclü nasos stansiyaları tikərək onun suyundan Gorus rayonunun əkin sahələrinin suvarılmasında istifadə edilməsi həm gölün çirklənməsinə, həm də onun səviyyəsinin aşağı düşməsinə səbəb olurdu. O vaxtlar laçınlıların ermənilər tərəfindən belə münasibətə narazılıqları qismən də olsa, onların fəaliyyətlərini məhdudlaşdırırdı.

Faiq İsmayılovun verdiyi məlumata görə, 1992-1993-cü illərin işğalından sonra ermənilər qoruq ərazisində heyvandarlıq fermaları inşa etmiş, göldə balıq təsərrüfatı yaratmışlar. Bu isə gölün çirklənməsinə və suyun səviyyəsinin aşağı düşməsinə səbəb olub.

### Tarixi Qaragöl döyüşü...

Faiq İsmayılov mətbuata bildirib ki, 1918-ci ildə el qəhrəmanı Sultan bəy Azərbaycan Xalq Cümhuriyyətinin məşhur Zəngəzur Hərbi Ekspedisiyasına daxil olan Cavad bəy Şıxlinskinin (Əliağa Şıxlinskinin qardaşı oğlu) başçılıq etdiyi ordu hissələri ilə birlikdə Qaragöl və Qarıqışlaq kəndi ətrafında Laçından Qarabağa dəhliz açmaq istəyən erməni quldur dəstələrinə qarşı amansız müdafiə və hücum döyüşləri aparmışlar. Həmin döyüşlər zamanı 600-dək erməni yaraqlısı məhv edilib. Bu vuruşma tarixdə Qaragöl döyüşü adı altında qalıb...

### Qaragöl Dövlət Təbiət Qoruğu

Qaragöl Dövlət Təbiət Qoruğu 17 oktyabr 1987-ci il tarixində yaradılıb. Qoruq Qarabağ vulkanik yaylasının cənub hissəsində böyük İşıqlı dağının (3552 m.) yamacında, 2650-2700 m. hündürlükdə yerləşir. Burada geoloji cəhətdən vulkanik dağların pliosen lava massivi, geomorfoloji baxımdan isə vulkanogen fasiyalar səciyyəvidir. Gölün şimal, şimal-qərb və qərb tərəflərində quru ərazi yarğanlı və qayalıdır, şimal-qərb tərəflərində bir neçə gətirmə konusu var, digər hissələrində relyef düzənlikdir. Ərazi üçün qışı quraq keçən soyuq iqlim tipi hakimdir. Bu iqlim tipi üçün ən soyuq ayın orta temperaturu -3 dərəcədən aşağı, ən isti ayın orta temperaturu isə 10-dan yuxarıdır. İllik yağıntının miqdarı 700 mm-dir.

Bitki örtüyünə gəlincə, qeyd edilənə görə, qoruğun gölü əhatə edən quru ərazisi yüksək dağlıq qurşağın səciyyəvi alp çəmənliklərindən ibarətdir. Qoruğun bitki örtüyü zəngin deyil. Bitki nümunələrinin azlığı qoruğun quru sahəsinin kiçik olması və əsas nadir və endemik bitkilərin onun sərhədlərindən kənarda qalması ilə əlaqədardır. Bitki örtüyü əsasən alp çəmən bitkilərindən ibarətdir. Cənub hissədə üçyarpaq yoncanın, şərq hissədə gəvənin üstünlük təşkil etdiyi çəmənliklər inkişaf edir. Gölün suyu ərazinin mütləq hündürlüyü ilə əlaqədar olaraq bitkilərdən çox kasıbdır. Burada yalnız amfibi qırxbuğumu və qaymaqçiçəyi bitir. Ərazidə çimli dağ-çəmən torpaqları yayılıb. Bu torpaqlar humusla zəngindir. Gölün ekoloji şəraiti və suyunun müəyyən xüsusiyyətləri burada canlı aləmin çox azlığına səbəb olub. Bununla bərabər, gölün suyunda zooplanktonlara, dibində isə yanüzənlərə (qammaruslar) rast gəlinir.

İşıqlı Qaragöl və onun ətraf ərazisi tarixən Azərbaycan torpağı olub. Qaragöl qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 metr hündürlükdə yerləşir. Qoruğun ümumi sahəsi 240 hektardır. Bura 176 ha İşıqlı Qaragölün su akvatoriyası və gölün sahil boyunca 100 metr enində 64 ha sahə aiddir. Qoruqda 102 bitki növü və yarımnövü var ki, bunlar 68 növ və 27 ailədən ibarətdir. Gölə heç bir yerdən su axımının olmamasına və suyun çox təmiz və şəfalı olmasına görə xalq bu gölə müqəddəs ibadət yeri kimi baxırdı.

Burada bitki örtüyünün inkişafına və zənginliyinə uzun illər qoyun sürülərinin otarılması və suvarmaya gətirilməsi nəticəsində tapdalanaraq korlanması xeyli mənfi təsir göstərib.

### Ermənistanın təxribatları davam edir

Bu gün həm Qaragöl Təbiət Qoruğuna, həm də Qaragölə qarşı Ermənistanın təxribatı davam edir. Həm Qaragöl, həm də Qaragöl Təbiət Qoruğu Azərbaycanın tarixi sərvətidir və ona qarşı Ermənistanın hər hansı bir iddia irəli sürməsi əsassızdır. Ermənilər Moskvadakı havadarlarının köməkliyi ilə torpaqlarımızı ələ keçirməyə nail olublar. Ermənistan bəzi ərazilərimizi isə işğal dövründə öz ərazilərinə qatıb və qanunsuz olaraq xəritəsinə daxil edib. Bu gün isə sərhədlərin müəyyənləşdirilməsi prosesi gedir və Ermənistan tərəfindən qanunsuz olaraq mənimsənilən ərazilərimiz Azərbaycan sərhədləri daxilinə qaytarılır, Qaragöl də həmçinin.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**